**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NOAM XOMSKİNİN SİNTAKTİK TƏLİMİNDƏ CÜMLƏNİN ALT VƏ ÜST QATLARI KONSEPSİYASI

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: Filologiya

İddiaçı: **Validə Sabir qızı Səmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Fəxrəddin Yadigar oğlu Veysəlli** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Fikrət Fətiş oğlu Cahangirov** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Bəylər İslamxan oğlu Hacıyev** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Aynur Müzəffər qızı Ağazadə** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | filologiya elmləri doktoru, akademik<br>**Kamal Mehdi oğlu Abdullayev** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri:<br>________________ | filologiya elmləri doktoru, dosent<br>**Könül Elxan qızı Abdurəhmanova** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Noam Xomski XX əsrin ən nüfuzlu dilçilərindən və bu günədək dilçilik nəzəriyyəsinin öndərlərindən biri hesab olunur. Alim öz unikal dilçilik fəlsəfəsi ilə məşhurlaşmışdır. N.Xomski həm də böyük səs-küyə səbəb olmuş Transformasional Törəmə (Generativ) Qrammatika (TGG) nəzəriyyəsi ilə məşhurdur. Bu nəzəriyyədə o, Universal Qrammatika (UG) adlandırdığı dilin kortəbii biliklərindən istifadə etməklə cümlələri yaradan əqli bacarığı xüsusi olaraq vurğulayır.

N.Xomski iyerarxiyası yarım əsr ərzində ardıcıl aparılan tədqiqatlar nəticəsində meydana gəlmişdir. O, dilçilik vasitəsilə idraki elmlərə əhəmiyyətli töhfələr verən yüzdən çox əsərin, o cümlədən "Sintaktik strukturlar" (1957), "Sintaksis nəzəriyyəsinin aspektləri" (1965), "Dekart dilçiliyi" (1966), "Dil və təfəkkür" (1968), "Dilçilik nəzəriyyəsinin məntiqi strukturu" (1975), "Dil haqqında düşüncələr" (1976), "Dil və məsuliyyət" (1977), "İdarəetmə və öhdəçilik üzrə mühazirələr" (1982), "Dil biliyi: onun təbiəti, yaranması və istifadəsi" (1986), "Dil və bilik problemləri" (1988), "Dil və fikirlər" (1993), "Dil və bilik problemi" (1994), "Minimalist proqram" (1995), "Dil memarlığı" (2000), "Təbiət və dil" (2002) və s. müəllifidir[1].

Bundan başqa, özünü Kartezian dilçiliyinin davamçısı elan etmiş N.Xomski R. Dekart dilçiliyi vasitəsilə onun məşhur fikrinin interpretasiyasının rahat izahını vermişdir. Onun dilçiliyinə həmçinin empirizmin və rasionalizmin sintezi axtarışında olan İ.Kant epistemiologiyası da təsir göstərmişdir. Dilin bilik sistemi kimi səciyyəsini nəzərə alaraq, faktiki olanın əhəmiyyətini kiçildərək N.Xomski, dil və təfəkkür fəlsəfəsinin yaxşı düşünülmüş ənənəsinin əsasını qoymuşdur.

N.Xomskinin digər filosoflar arasında mövqeyi üç fakt əsasında müəyyən olunur. Birincisi, o, XX əsrin ortalarında üstünlük təşkil edən empirizmdən – psixologiyada biheviorizm, dilçilikdə strukturalizm və fəlsəfədə pozitivizmdən üz döndərərək, humanitar elmlərdə mühüm metodoloji tərpənişə əhəmiyyətli qatqıda

[1] www.ugr.es/~fmanjon/Language%20and%20Mind.pdf\languageandmindbycomsky

bulunmuşdur. İkincisi, onun “Sintaksis nəzəriyyəsinin aspektləri” adlı novator kitabı dilçilikdə yeni konseptual koqnitiv yanaşmanın əsasını qoyaraq, insan dilinin və ağlının tədqiqi üçün filosofları yeni ideyalarla təmin etmişdir. Nəhayət üçüncüsü, o, bütün fəaliyyəti boyu öz baxışlarını müdafiə etmək üçün analitik və tənqidi fəlsəfənin ən qabaqcıl simaları ilə (T.Burje, D.Devidson, D.Sol Kripke və s.) mühüm debatlarda iştirak etmişdir.

Onu da qeyd etməliyik ki, N.Xomskinin həmçinin sintaksis haqqında erkən əsərlərinin konseptual əsasları filosoflar arasında həddən artıq böyük nüfuza malik idi. Onun analitik fəlsəfədə alt və üst qat strukturunun fərqləndirilməsi ənənə ilə yaxşıca qaynayıb-qarışmışdır. “Sintaksis nəzəriyyəsinin aspektləri” (1965) əsərində göstərildiyi kimi, qrammatika iki səviyyəyə bölünür: qrammatikanın strukturunun kontekst-sərbəst ifadələrinin prekursiv qaydaları ilə yaranan alt səviyyə və bu qaydaların tətbiq edilməsi vasitəsi ilə çevrilmənin alt strukturundan yaranan üst səviyyə.

Beləliklə, araşdırılan mövzunun aktuallığı məhz ondadır ki, dissertasiyada N.Xomskinin dil təliminin məziyyətləri, yəni dilin yaradıcı olması prinsipi, onun Kartezian dilçiliyə münasibəti, dilin anadangəlmə olması prinsipi, sintaktik təlimində dil səriştəsi və dildən istifadə məsələləri araşdırılır. Bundan başqa, tədqiqat işində N.Xomskinin sintaktik təlimində üst və alt qat problemi, cümlənin üst qatının müəyyənləşməsi kriteriyaları və alt qatının spesifik xüsusiyyətləri, üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqi, üst qatın formal yanaşmalardan fərqi, alt qatda ambiguity (ikimənalılıq), və nəhayət, alt və üst qatların qarşılıqlı əlaqəsinin araşdırılmasına da böyük əhəmiyyət verilir. Adı çəkilən məsələlərin həllinə təşəbbüs göstərilir, onların həlli üçün müxtəlif yanaşmalardan istifadə olunur. Qeyd olunan nəzəri fikirləri təsdiqləmək üçün müəllif Azərbaycan, rus, ingilis dillərinin materiallarından da geniş istifadə etmişdir. Bu da dissertasiya işinin həm aktuallığını, həm də dəyərini artırmış olur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti görkəmli dilçi alim N.Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatlarının konsepsiyası təşkil edir.

Dissertasiyanın predmeti isə cümlənin alt və üst qatlarının

müəyyənləşməsi kriteriyaları, spesifik xüsusiyyətləri və bu məsələ ilə bağlı alimin elmi-nəzəri fikirləri və mülahizələrini təşkil edir. N.Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatlarının təhlilindən alınan nəticələrin ümumiləşməsi onun predmetinin mahiyyətini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi N.Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatları konsepsiyasını dərindən araşdırmaq, onların kriteriya və spesifik xüsusiyyətlərini müəyyənləşdirərək qarşılıqlı əlaqəsini göstərməkdir. Bu məqsədlə aşağıda göstərilən vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

– N.Xomskinin dil təliminin məziyyətlərini araşdırmaq;

– dilin yaradıcı olması, N.Xomskinin Kartezian dilçiliyə münasibətini və ya dilin anadangəlmə olması prinsipi və onun sintaktik təlimində dil səriştəsi və dildən istifadə qaydalarını müəyyənləşdirmək;

– alimin sintaktik təlimində cümlənin alt qat strukturu və ya semantik tədqiqi prinsiplərini müəyyənləşdirmək və araşdırmaq;

– cümlənin alt qatının spesifik xüsusiyyətlərini, alt qatda ambiguity (ikimənalılıq) və onun müəyyənləşməsi kriteriyalarını, dilin mənimsənilməsində alt və üst qatların qarşılıqlı əlaqəsini araşdırmaq;

– N.Xomskinin sintaktik təlimində üst qat problemini araşdırmaq;

– cümlənin üst qatının müəyyənləşməsi kriteriyalarını araşdırmaq;

– üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Dissertasiya işində bütöv sistemli təhlil prinsipi, xüsusilə diskriptiv (təsviri) metod əsas götürülmüşdür. N.Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatlarının nəzəri məsələləri diqqətə alınmış və kompleks şəkildə araşdırılmışdır.

**Müdafiəyə çıxarılan müddəalar:**

– N.Xomskinin dilçilik əsərləri müasir psixologiya, fəlsəfə və elm üçün dərin nəticələrə gətirib çıxarmışdır. Onun üçün dilçilik koqnitiv psixologiya sahəsidir. Dilçilikdə həqiqi həssaslıq mental və

insani təbiətin aspektlərinin uyğunluğu anlayışını nəzərdə tutur. Belə anlayışın nəticələrindən biri də odur ki, dilçilik, psixologiya, fəlsəfə və ayrı avtonom fənlər kimi nəzərdən keçirilmir;

–N.Xomski dilçiliyi ağlın tədqiqinin əsasına gətirmişdir. Onun unikal fəlsəfəsi dilə malikdir, dilçiliyin mahiyyəti epistemiologiyanın daha geniş sahəsində nüfuzlu yerdir;

–Dildən istifadəyə yaradıcı yanaşma haqqında danışarkən, N.Xomski R.Dekartın konsepsiyasına istinad etmişdir. Dilçiliyin tərəfimizdən "Kartezian" adlandırılan əsas nailiyyətlərindən biri insan dilinin normal istifadədə bir-birindən müstəqil olaraq ayrılan xarici stimullar və daxili vəziyyətlərin nəzarətindən azad olması məsələn, heyvanların psevdo-dilinin əksinə olaraq, hər hansı praktiki rabitə funksiyası ilə məhdudlaşmamış olmasının dərk edilməsidir. Beləliklə, dil heç nə ilə məhdudlaşmayan düşüncə və özünüifadə vasitəsi kimi sərbəst şəkildə istifadə edilə bilər;

–essensialist kimi, N.Xomski səriştəlilik və səmərəliliyi ayırır. Səriştəlilik dil bilgisi olub bütün cümlələrin struktur xüsusiyyətlərinin implisit anlaşılmasıdır. Səmərəlilik real zaman rejimini özünə birləşdirir və əsas səriştə ilə ətraf aləmin pozulması və yaddaşın məhdudlaşması zamanı radikal cəhətdən ayrıla bilir;

–yeni terminologiyanı istifadə edərək tədqiqat işində müəyyən edilmiş fərqlər cümlənin "alt strukturu" və "üst strukturu" arasında fərqlər kimi formalaşdırılır. Alt struktur cümlənin semantik şərhlənməsini təyin edən mücərrəd baza strukturudur; üst struktur isə onun fonetik səslənməsini müəyyənləşdirən və həqiqi fikrin fiziki, qavranılan və ya icra edilən forması ilə bağlı olan vahidlərin üst təşkilidir. Bu terminlər Kartezian dilçiliyinin ikinci əsaslı müddəası kimi ifadə edilir: alt və üst strukturlar mütləq oxşar olmalı deyil;

–cümlənin üst qat strukturu qrammatikanın fonoloji komponentinə daxil olan cümlənin sintaktik təmsilçisinin son mərhələsi hesab edilərək ifadə etdiyimiz və eşitdiyimiz cümlə strukturuna çox uyğun gəlir. Qrammatik strukturun adı çəkilən iki səviyyəli konsepsiyası dilçilikdə geniş yayılmışdır. Alternativ konsepsiya üst qat strukturunu birbaşa alt strukturdan tamamilə kənara çıxararaq semantika səviyyəsinə aid edir. "Üst qat qrammatikası" termini bəzən cümlənin səthi xüsusiyyətləri üçün

qeyri-rəsmi bir termin kimi istifadə olunur;

–alt qat strukturu cümlənin başlıca formasıdır, köməkçi inversiya və wh-önlüyü kimi qaydalardan əvvəl tətbiq olunur. Üst qat strukturu isə müvafiq morfoloji və fonoloji qaydaların istifadəsi nəticəsində yaranır. Belə ki, cümlənin üst qat strukturu fonetik təmsilçi kimi təqdim olunur.

–N.Xomskinin təqdimatında alt struktur cümlə mənasının formalaşmasını bildirir, üst struktur isə bu mənanın səsli tərəfini bildirir. Belə ki, alt struktur səsdən və ya sözdən öncə törəmə kimi nəzərdə tutulur, baxmayaraq ki, alim alt strukturu nümayiş edərkən onu kifayət qədər real sözlərin əlaqəsi kimi təqdim edir.

**Tədqiqatın elmi yeniliyi.** Bildiyimiz kimi, sintaktik təlimdə cümlənin alt və üst strukturu araşdırma obyekti kimi götürülmüş, bununla belə, N.Xomskinin dil təliminin məziyyətləri də araşdırılmışdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki:

1. Dissertasiyada ilk dəfədir ki, dilin yaradıcı olması prinsipi, N.Xomskinin Kartezian dilçiliyinə münasibəti, onun sintaktik təlimində dil səriştəsi və dildən istifadə prinsipi geniş şəkildə araşdırılır. İndiyədək bu mövzu Azərbaycan dilçiliyində araşdırılmamışdır;

2. Dissertasiyada N.Xomskinin sintaktik təlimində cümlənin üst qat problemi, cümlənin üst qatının müəyyənləşməsi kriteriyaları və üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqi Azərbaycan dilçiliyində ilk dəfə araşdırılır;

3. Azərbaycan dilçiliyində cümlənin alt qat strukturu və ya semantik tədqiqi prinsipləri, cümlənin alt qatının spesifik xüsusiyyətləri, alt qatda ambiguity (ikimənalılıq) və onun müəyyənləşməsi kriteriyaları və dilin mənimsənilməsində alt və üst qatların qarşılıqlı əlaqəsi tədqiq olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin aktuallığı onun nəzəri əhəmiyyətini şərtləndirir; dissertasiya işi N.Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatlarının tədqiqini əhatə edir. Dissertasiya gələcəkdə N.Xomskinin dil məziyyətləri və sintaktik təlim sahəsində elmi iş yazanlar üçün örnək ola bilər. Təqdim olunan dissertasiyadan gələcəkdə N.Xomski və onun dil məziyyətlərinə aid əsərlər yazılmasında istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin ayrı-ayrı bölmələri və nəticələri Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəaları respublikanın və xarici ölkələrin elmi jurnallarında, respublika və beynəlxalq konfransların materiallarında dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 6 səhifə, 9616 işarə, I fəsil – 30 səhifə, 59402 işarə, II fəsil – 27 səhifə, 50953 işarə, III fəsil – 38 səhifə, 75065 işarə, nəticə – 4 səhifə, 6659 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 201695 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, elmi nəzəri və praktik əhəmiyyəti və s. nəzərə çatdırılır.

Dissertasiya işinin I fəsli **"Noam Xomskinin dil təliminin məziyyətləri"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

Bu fəslin ***"Dilin yaradıcı olması"*** adlanan birinci yarımfəslində Noam Xomskinin konsepsiyasında dilin yaradıcı olması haqqında fikirlər irəli sürülür. Bu məsələ ilə bağlı Noam Xomski R.Dekartın konsepsiyasına istinad edərək göstərir ki, *"R.Dekart öz əsərlərində yalnız nadir hallarda dilə müraciət edir, lakin onun dilin təbiəti haqqında bəzi fikirləri ümumilikdə dilin öyrənilməsində mühüm rol oynayır. Mexanistik izah imkanlarının və sərhədlərinin aydınlaşdırılmasına istiqamətlənən tədqiqatlarının gedişində, o, fizikanın sərhədlərindən kənara çıxmalı və fiziologiya və psixologiyaya müraciət etməli olmuşdur; nəticədə, o belə qənaətə gəlmişdir ki, heyvanların bütün davranış aspektlərini onların*

*avtomat olması ehtimalından çıxış edərək izah etmək olar”*[2]. Öz tədqiqatlarının gedişində, R.Dekart spekulyativ fiziologiyanın nüfuzedici sistemini işləyib hazırlamışdır. Bununla yanaşı, o bu nəticəyə gəlmişdir ki, insana təmiz mexanistik izah verməyin mümkün olmadığı nadir xüsusiyyətlər xasdır. Lakin buna baxmayaraq, insan davranışını və onun bədəninin fəaliyyətini müəyyən dərəcədə oxşar qaydada izah etmək olar. İnsan və heyvan arasında əsas fərq ən aydın şəkildə insanın dilində, xüsusilə də, insanın hal və vəziyyətləri ilə bağlı yeni fikirlər ifadə edən yeni hökmlər formalaşdırmaq qabiliyyətində təzahür edir.

R.Dekartın fikrincə, *“əlbəttə, təsəvvür etmək olar ki, sözləri tələffüz edə bilən bir maşın hazırlanmışdır və onlardan bəziləri bunu, hətta orqanlarında bu və ya digər dəyişikliklərə səbəb olan cismani təsiri ilə əlaqədar olaraq da edə bilir; məsələn, bir yerinə toxunanda ona nə demək istədiklərini soruşur, digər yerinə toxunanda isə ağrıdığını deyib qışqırır və s.; lakin o (maşın) ən səfeh insanın belə edə biləcəyini – onun yanında bütün deyilənlərin mənasına uyğun cavab vermək üçün sözləri müxtəlif şəkildə yerləşdirməyi bacarmır”*[3].

Əslində, *“bir neçə sözü əlaqələndirə bilməyən və öz fikrini çatdırmaq üçün onlardan nitq formalaşdıra bilməyəcək dərəcədə səfeh və ağıldan kəm insanların olmaması əladır. Və əksinə, buna bənzər bir şey edə biləcək mükəmməl bir heyvan yoxdur”*[4]. İnsan və heyvan arasındakı bu fərqi periferik orqanların fizioloji fərqləri ilə izah etmək mümkün deyildir. Ona görə də, R.Dekart izah edir ki, *“bu, orqanların olmaması səbəbindən deyildir, çünki sağsağan və tutuquşular da bizim kimi sözləri tələffüz edə bilir, lakin bizim kimi yəni, düşünərək dediklərini düşündüklərini göstərərək danışmırlar. Lal və kar doğulmuş insanlar və insanlara nitq üçün xidmət edən digər orqanlardan heyvanlar ilə eyni və ya daha artıq dərəcədə məhrum olan insanlar, adətən, fikirlərini izah etmək üçün özləri bəzi*

---

[2]Хомский, Н. Картезианская лингвистика (История лингвофилософской мысли.). Глава из истории рационалистической мысли. / Н.Хомский. Пер. с англ. Предисл. Б.П.Нарумова. – М.: КомКнига, – 2005. – с. 23.

[3]Yenə orada, s. 24

[4]Yenə orada, s. 24

*işarələr kəşf edirlər...”*[5].

Ümumilikdə, fikrimizcə, insan davranışının müxtəlifliyi, onun yeni situasiyalara uyğun dəyişkənliyi və insanın innovasiyalara qabil olması (bunun əsas göstəricisi dildən istifadənin yaradıcı aspektidir) R.Dekartı insanın özündən fərqli digər insani varlıqlara da şüuru aid etməyə sövq edir, çünki onun üçün bu cür qabiliyyət istənilən düşünən mexanizmin imkanları xaricindədir. Beləliklə, adekvat psixoloji nəzəriyyənin yaradılması üçün, insan hərəkətləri və “ehtiraslarının” geniş çevrəsi də daxil olmaqla, canlı və cansız dünyanın bütün digər aspektlərinin izahı üçün kifayət edən “mexaniki prinsip” həmçinin “yaradıcı prinsip” mövcudluğunu da qəbul etmək lazımdır.

Yekun olaraq söyləmək olar ki, linqvistikanın “Kartezian” adlandırılan əsas nailiyyətlərindən biri insan dilinin normal istifadədə bir-birindən müstəqil olaraq ayrılan xarici stimullar və daxili vəziyyətlərin nəzarətindən azad olması və məsələn, heyvanların psevdo – dilinin əksinə olaraq, hər hansı praktiki ünsiyyət (kommunikasiya) funksiyası ilə məhdudlaşmamış olmasının dərk edilməsidir.

Yarımfəsildə belə müqayisələr əsasında Xomskinin dil təliminin məziyyətləri aydınlaşdırılmışdır.

Birinci fəslin ***“Noam Xomskinin Kartezian dilçiliyinə münasibəti və ya dilin anadangəlmə olması prinsipi”*** adlı ikinci yarımfəslində dil heç nə ilə məhdudlaşmayan düşüncə və özünüifadə vasitəsi kimi təsvir olunur. Bu fikri N.Xomski dilin anadangəlmə prinsipi ilə izah edir. N.Xomskinin linqvistik nəzəriyyəsi tədqiqatçıların diqqətini çoxdan cəlb etmiş və cəlb etməkdədir. Verilən nəzəriyyələr arasında bizim üçün onun “Kartezian linqvistika”sına münasibəti olduqca maraqlı və mühüm görünür. N.Xomskinin “Kartezian linqvistika” kitabı, qeyd etmək lazımdır ki, özünəməxsusdur, burada o, XIX əsrə qədərki filosof və filoloqların dil haqqındakı nəzəriyyələrinə nəzər yetirmək qərarına gəlmişdir. Niyə bu dövr – çünki kitabın yazıldığı dövrdə (yarım əsr əvvəl)

---

[5]Хомский, Н. Картезианская лингвистика (История лингвофилософской мысли.). Глава из истории рационалистической мысли. / Н.Хомский. Пер. с англ. Предисл. Б.П.Нарумова. – М.: КомКнига, – 2005. – с. 25

linqvistikanın bir elm kimi XIX əsrdə yarandığı hesab edilirdi. Lakin kitabın özünəməxsusluğu linqvistika tarixinin dəyişməsində deyildir – N.Xomski əsərlərində mövqeləri öz fikirləri ilə, dil qabiliyyətinin alt və üst strukturu, transformasiya qrammatikası və anadangəlmə olması haqqındakı nəzəriyyəsi ilə uyğun olan ötən dövr mütəfəkkirlərini seçir. Qeyd etmək lazımdır ki, o, fəlsəfə tarixi üzrə xrestomatiyadan olmayan olduqca qeyri-ənənəvi müəlliflər ilə işləyir. Lakin məşhur mütəfəkkirlər də vardır.

N.Xomskinin Kartezian dilçiliyinə münasibətini bildirməzdən əvvəl, "qavrama=öyrənmə" adlı maraqlı nəzəriyyəsini qeyd etmək lazımdır. Daha doğrusu, onlar eyni mexanizmlə reallaşırlar və ona görə də demək olar ki, eynidirlər. Əgər müasir koqnitiv elmin kəşfi olan "yaddaş=xəyal"ın, daha doğrusu, xatirə və fantaziyanın eyni mexanizmlə təmin olunduğunu müqayisə etsək, bu barədə fikirləşməyə dəyər.

Yarımfəsildə qeyd olunur ki, N.Xomskinin Kartezian dilçiliyinin mühüm problemlərindən biri də cümlənin sintaktik strukturudur, bura cümlənin alt və üst qatlarının konsepsiyası daxildir. Belə ki, N.Xomskinin cümlə anlayışına gəldikdə isə onu qeyd edə bilərik ki, onun sintaktik təlimində cümlə anlayışı "alt" və "üst" struktur ilə bağlıdır. Yeni terminologiyanı istifadə edərək, biz aparılan müqayisəni cümlənin "alt strukturu" ilə "üst strukturu" arasındakı fərq kimi göstərə bilərik. "Alt strukturu" mücərrəd struktur olub, cümlənin semantik şərhini müəyyən edir; "üst strukturu", vahidlərin yüksəklik quruluşu olub, onun fonetik şərhini müəyyən edir və real ifadənin fiziki, qəbul olunan və ya mənşəyi olan forması ilə əlaqədardır. Bu terminlərdə biz Kartezian dilçiliyinin ikinci fundamental mülahizəsini, məhz: alt və üst strukturlarının bərabər olmasının heç də vacib olmadığı mülahizəsini irəli sürə bilərik. Cümlənin semantik şərhi üçün mühüm olan bazis quruluşu onun konkret komponentlərinin qruplaşmasında və düzülüşündə bilavasitə vacib olmayaraq müşahidə olunur. Belə ki, cümlənin alt strukturunun reallığı – bu, gizli mental reallıqdır, ifadənin fikrən deyilişinə tələffüz olunan sözün üst formasının sadə, eynimənalı şəkildə uyğun gəlib-gəlməməsindən asılı olmayaraq yaranan bir şeydir.

N.Xomskinin müşahidələrinə görə, uşaqlar, mahiyyətcə cümlə, fraza və qrammatik qaydaların böyük miqdarını canlarına hopdururlar ki, özlərinin əvvəl heç yerdə eşitmədikləri qrammatikalarını yaratsınlar. İki yaşından yeddi yaşa qədər olan dövrdə, dil mənimsənildiyi vaxtdamüddət ərzində, uşaqlar öz qrammatikalarını o vaxta qədər düzəldirlər ki, böyüklərin qrammatikası ilə müqayisə edilə bilsin. Bu, uşaqlar üçün kritik zaman dövrüdür. Daha doğrusu, uşaq nə qədər ki, istənilən dili eşidir – o, bu kritik dövrü keçdiyi zaman dili əla öyrənəcək. Beləliklə, hər bir uşaq, bu zaman dövründə dili eşitməyərək, bu dildə danışa bilməyəcək. Bu, kritik dövrün hipotezası kimi məlumdur.

Beləliklə, biz müəyyən etmiş oluruq ki, dilin istifadəsinin yaradıcılıq aspektinin təhlili o mülahizəyə söykənir ki, gerçəklikdə dil və fikri proseslər eynidir; dil bizə fikir və hisslərimizi azad ifadə etmək üçün ilkin vasitələri çatdırır, habelə yaradıcılıq təxəyyülünü işə salır. Dilin iki tərəfi var – daxili və xarici. Cümləni, onun fikri hansı üsulla ifadə etməsi və fiziki görünüşü nöqteyi-nəzərindən, başqa sözlə, onun semantik və fonetik interpretasiyası planında öyrənmək olar. Belə ki, N.Xomski üçün, dilçilik nəzəriyyəsinin mərkəzi problemi adi insanın dil bilgisi arasında onun doğma dili mənimsəyərək əldə etdiyi cüzi bilgi haqqında uyğunsuzluq faktıdır, yəni onun dediklərindən belə nəticəyə gəlirik ki, uşaq dili onu əhatə edənlərin düz və ya səhv dilinə əsaslanaraq əldə edir. Buna baxmayaraq, sonda o, transformasional törəmə qrammatika modelinə uyğun mürəkkəb və xüsusi (spesifik) qrammatikaya malik dilə yiyələnmiş olur, yəni uşağın beynində anadangəlmə mexanizm ("daxili mexanizm") mövcuddur. Bu mexanizm həm doğma, həm də doğma olamayan dil bacarıqlarının mənimsənilməsində universal qrammatikanın müxtəlif nitq vərdişlərinin əldə edilməsinə imkan yaradır. Nəticədə, uşaq böyüdükcə dil bacarıqlarından müntəzəm istifadə edərək sətiştəli nitqini formalaşdırır.

Birinci fəslin ***"Noam Xomskinin sintaktik təlimində dil səriştəsi və dildən istifadə"*** adlı üçüncü yarımfəslində Noam Xomskinin təlimində dil səriştəsi və dildən istifadə haqqında fikirlər və yanaşmalardan bəhs olunur. "Dil səriştəsi" ("kompetensiya") termini N.Xomski tərəfindən XX əsrin ortalarında irəli sürülmüş və

semantik cəhətdən “dildən istifadə”, yəni “performans” terminin qarşı qoyulmuşdur. Bu terminlərin məna fərqi “danışan-qulaq asanın” dil barədə biliyi və ünsiyyət təcrübəsində və insanın fəaliyyətində dildən istifadə fərqi kimi açılır. Ciddi dilçilik tədqiqatları çərçivəsində qalmağa çalışaraq, N.Xomski real nitq aktlarını nəzərə almayaraq, ciddi-cəhdlə “ideal danışan-eşidəni”, daha doğrusu, dilin abstrakt təsəvvür edilən daşıyıcısını nəzərdə tutur. Real dil daşıyıcısını isə bütün nitq xüsusiyyətləri ilə birlikdə o, linqvistikanın deyil, psixologiyanın, sosiologiyanın, didaktik tədqiqatların obyekti kimi təsnif edirdi[6].

Essensialist kimi, N.Xomski səriştəlilik və səmərəliliyi ayırır. Səriştəlilik – dil bilgisi olub, bütün cümlələrin struktur xüsusiyyətlərini implisit anlaşılmasıdır. *“Səmərəlilik real zaman rejimini özünə birləşdirir və əsas səlahiyyətlə ətraf aləmin pozulması və yaddaşın məhdudlaşması zamanı radikal cəhətdən ayrıla bilir”*[7]. Səriştəlilik insanlara bütün mümkün qrammatik cümləlsri istifadə etməyə imkan verir. Performans bu istifadənin hərgünki nitqdə şəklini dəyişməsidir. N.Xomski ehtimal edirdi ki, dilçilik nəzəriyyəsi dildən istifadənin əsasında durmalıdır. Daha doğrusu, dilçiliyin predmeti səmərəlilik yox, səlahiyyətdir.

60-cı illərin sonu, 70-ci illərin əvvəlində N.Xomskinin ardıcılları (bəzi deyilənlərə görə o, özü də) bu terminlər altında “dil bacarığı”, daha doğrusu, dil barədə potensial bilik və onun daşıyıcısının dili, və “dil aktivliyi”, daha doğrusu, real şəraitdə real nitqi başa düşürlər. *“Bununla belə, insan nəzəri cəhətdən danışmaq və başa düşə bilmək qabiliyyətinə malikdir və o həqiqətən konkret situasiyalarda danışır və başa düşür” arasındakı fərqə işarə edərək, bu anlayışların məzmununu D.Slobin dəqiq qeyd edir”*[8].

N.Xomskinin dil şəriştəsi (competence) və dildən istifadə

---

[6] Хомский, Н. Синтаксические структуры // – М.: Просвещение, Новое в лингвистике, – 1962. Вып. 1. – с. 480; Хомский, Н. Аспекты теории синтаксиса. / Н.Хомский. Пер. В.А.Звегинцева) – М.: Издательство Московского университета, – 1972. – с. 250.

[7] Хомский, Н. Аспекты теории синтаксиса. / Н.Хомский. Пер. В.А.Звегинцева/ – М.: Издательство Московского университета, – 1972. – с. 57.

[8] Слобин, Д. Психолингвистика. / Д.Слобин, Дж.Грин. – М.: Посвещение, – 1970. – с. 23.

(performance) anlamları haqqında danışan F.Veysəlli “Struktur dilçiliyin əsasları” kitabında yazır: *“Qrammatika yalnız və yalnız dilin qrammatik cümlələrinin törəməsilə məşğul olmalıdır. Söhbət ədəbi dil cümlələrindən deyil, gündəlik həyatda hər bir dil daşıyıcısının işlətdiyi cümlələrin yaranması qaydalarını və şərtlərini açıb göstərməyi bacarmaqdan gedir. Göründüyü kimi, burada həm sərişə (competence), həm də işlətmə, tətbiq etmə (performance) qarşılıqlı əlaqədə götürülür. Qrammatika /Mən sevirəm//, /Mən oxumağı xoşlayıram// kimi dildaşıyıcılarının hər gün, hər saat ünsiyyətdə işlətdiyi qrammatik düzgün cümlələri şərh etməyi bacarmalıdır. Bu, o deməkdir ki, /Mən dondurma oxuyuram// kimi cümlə qrammatik cəhətdən düzgün quruluşa malik olsa belə, onları sintaksis öyrənmir”*[9].

İrəli sürülən digər yanaşma psixologiyada nitq ontogenezi barədə yığılan materiallara, psixo və sosiolinqvistikaya, habelə öz tədqiqatlarımıza əsaslanır. Bizim tərəfimizdən dil səlahiyyətinə iki əsas komponenti özündə birləşdirən psixoloji sistem kimi baxılır: ünsiyyət prosesi və fəaliyyətində uşaq tərəfindən yığılan nitq təcrübəsinə aid verilənlər; xüsusi təşkil olunmuş təhsil (məktəb) gedişində dil barədə biliklərə yiyələnmək.

Qrammatikanın sintaktik komponenti hər bir cümlə üçün alt strukturunu göstərməlidir ki, bu, onun semantik şərhini müəyyən edərək, üst strukturu yəni, onun fonetik şərhini ifadə etsin. “Alt struktur” – semantik komponentlə, “üst struktur” – fonoloji komponentlə şərh olunur.

Ehtimal etmək olardı ki, alt və üst strukturlar həmişə bərabər olacaqlar. “Transformativ Generativ qrammatika”nın mərkəzi ideyası ondan ibarətdir ki, bu strukturlar ümumiyyətlə fərqlidir və yüksəklik strukturu bir çox müəyyən formal əməliyyatların, daha elementar növ obyektlərin tətbiqinə məruz qalır ki, bunlar “qrammatik transformasiyalar” adlanır. Əgər bu düzdürsə, o zaman sintaktik komponent hər bir cümlə üçün dərinlik və yüksəklik strukturları yaratmalı və onları bir-biri ilə uyğunlaşdırmalıdır.

Beləliklə, deyilənləri ümumiləşdirərək bu yarımfəsildə belə

---

[9] Veysəlli, F.Y. Struktur dilçiliyin əsasları. Studia philologica: dərs vəsaiti. / F.Veysəlli. – Bakı: Mütərcim, – 2008. – s. 176.

nəticəyə gəlinir ki, dil səriştəsinin strukturun dilçilik əsaslarına müraciət edərək yadda saxlamaq lazımdır ki, dil özünün bütün səviyyələri ilə birlikdə bir vahid kommunikativlik təşkil edir: fonetik, morfoloji, leksik, frazeoloji, sintaktik. Deməli, formalaşan dil səriştəliliyində dilin bütün bu sistemaltıları eyni zamanda qarşılıqlı əlaqədə təqdim olunmalıdır.

Tədqiqat işinin **"Noam Xomskinin sintaktik təlimində üst qat problemi"** adlı ikinci fəsili həmçinin üç yarımfəsildən ibarətdir.

İkinci fəslin ***"Cümlənin üst qatının müəyyənləşməsi kriteriyaları"*** adlı ilk yarımfəslində N.Xomskinin konsepsiyasında cümlənin üst qatının müəyyənləşməsi meyarlarından bəhs olunur. N.Xomskinin təklif etdiyi törəmə modeli çərçivəsində cümlələrin alt və üst strukturuna dair konseptual bir yanaşma tətbiq olunur[10]. O, həmçinin qeyd edir ki, *"üst quruluş birbaşa eşitdiyimiz və oxuduqda qəbul etdiyimiz strukturdur. Alt struktur isə söyləmin mənası ilə bağlıdır. Eyni zamanda üst və alt struktura malik olan cümlələr də var. Bundan başqa üst quruluşdan ibarət iki alt semantik strukturlu (yəni, semantik şərhin iki variantlarından ibarət) ifadələr də mövcuddur. Eyni zamanda, alt struktur cümlənin mənasını təşkil edir və üst struktur bu mənanın səs və ya qrafik tərzidir"*[11]. Yarımfəsildə "generativ qrammatika" haqqında məlumat verilir, "alt və üst qat" strukturu anlayışı dilçiliyin terminoloji repertuarında tutduğu mövqeyə görə şərh olunur.

N.Xomskinin törəmə qrammatikasından danışan F. Veysəllinin fikirlərini xatırlatmamaq olmur. Belə ki, o qeyd edir: *"Noam Xomskinin sintaktik təlimi üç modeldən ibarətdir. Üçüncü model transformasiya modelidir"*[12]. N.Xomskiyə görə, *"bu modeldə transformasiyalar hazır cümlələr arasında simmetrik əlaqələr şəbəkəsi deyil, bu cür halqaları digərlərinə çevirmə qaydalarıdır"*[13].

Alt və üst qatın cümlədəki funksiyasından danışan F.Veysəlliyə

---

[10]Cook, V.J. Chomsky's Universal Grammar: An Introduction (2nd edition). / V.J.Cook, M.Newson. – Oxford: Blackwell Publishers, – 1996. – p. 270.
[11]Chomsky, N. The Science of Language. / N.Chomsky. – Cambridge: Cambridge University Press, – 2012. – p. 34.
[12]Veysəlli, F.Y. Dil. / F.Veysəlli. – Bakı: Təhsil, – 2007. – s. 264.
[13]Yenə orada, – s. 264.

görə, *"hər iki struktur müxtəlif ola bilər"*. Onun verdiyi misala müraciət edək: Azərbaycan dilində */Əhməd sevgilisini əvvəlcə vağzala, sonra isə dəli olmağa çatdırdı//* cümləsində /vağzala/ və /dəli olmağa/ qrammatik cəhətdən eyni funksiyaya malikdir. Bu cümlə dinləyəndə təəccüb doğura bilər. Ancaq biz desək ki, */Əhməd sevgilisini əvvəlcə vağzala, sonra isə dəli olmağa çatdırdı//* və */Əhməd sevgilisini əvvəlcə dəli olmağa, sonra isə intihara çatdırdı//* görərik ki, bu iki cümlədə daxili əlaqə çox müxtəlifdir. Birinci halda hər iki cümlədə subyekt kimi Əhməd çıxış edir, ikinci cümlədə isə vəziyyət zərfinin subyekti kimi Əhməd yox, sevgilisi çıxış edir. Deməli, üst qatda eyni ardıcıllıq olsa da, alt qatda ikimənalılıq dərhal nəzərə çarpır[14].

Qeyd olunan müqayisələr əsasında N.Xomskiyə məxsus olan cümlənin üst qatının müəyyənləşməsi kriteriyaları haqqında aydın təsəvvür yaranır.

Beləliklə, yuxarıda deyilənlər bir daha sübüt edir ki, cümlənin üst qatı fonetik və fonoloji təmsilçilərdən ibarət komponentlərə, lakin, cümlənin alt qatı isə semantik təmsilçilərdən ibarət komponentlərə malikdir. Cümlənin üst qatının adı çəkilən əsas təmsilçiləri onu formal təmsilçilərdən fərqləndirməyə imkan yaradır. Bu məsələnin ətraflı araşdırılması növbəti paraqrafda təsvir olunur.

İkinci fəslin ***"Üst qat strukturu üzrə təhlilin digər başqa təhlillərdən fərqi"*** adlı ikinci yarımfəslində üst qat strukturu üzrə təhlilin digər başqa təhlillərdən fərqi təsvir olunur. Göstərilir ki, üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqini dəqiq anlamaq üçün, cümlə sintaksisi səviyyəsində təhlilə nəzər salınmaq lazımdır. Yarımfəsildə linqvistiq tədqiqatların hazırki mərhələsində cümlə sintaktik səviyyədə təhlilə cəlb olunur. Burada cümlə strukturunun təhlilinə müxtəlif yanaşmalar, o cümlədən V.Z.Panfilov və M.M.Quxman tərəfindən təklif olunan variantlar şərh edilir. Aparılan müqayisələr zamanı V.Z.Panfilovun, F.Veysəllinin ideyaları müqayisəli şəkildə təhlilə cəlb edilir. Göstərilir ki, cümlədə sintaktik semantika və ya müxtəlif əlaqələrin semantik təfsiri geniş yayılmışdır. Sintaksisin bu aspektində T.B.Alisovun,

---

[14]Veysəlli, F.Y. Struktur dilçiliyin əsasları. Studia philologica: Dərs vəsaiti. / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2008. – s. 154.

N.D.Arutyunovanın, V.V.Boqdanovun, V.G.Qakın, I.P.Susovun, L.Çeyfin və digərlərinin işləri yerinə yetirilmişdir. Cümlə təhlilinin formal qrammatik və semantik səviyyələri bir-birinə bərabər deyil, izomorfik deyildir. Bu səviyyələrdən müəyyən bir nisbət formal və semantik xüsusiyyətlərə əsasən cümlənin struktur dərinliyini müəyyənləşdirmək baxımından həyata keçirilir.

Sintaksisin semantika ilə əlaqəsi haqqında fikirlərə N.Xomskinin generativ qrammatikasında da rast gəlmək olar. Generativ qrammatika N.Xomskinin iyerarxiyasının köməyi ilə təsvir və müqayisə edilir. Bu iyerarxiyaya görə, bir neçə növ formal qrammatikalar ayrılır. Sadə növlər içərisində müntəzəm qrammatikalar mövcuddur; N.Xomski, bunların, bütün təbii dillərdə olduğunu deyir.

Yarımfəsildə göstərilir ki, N.Xomski qrammatikanın sintaktik komponentinin cütlər əmələ gətirilməsini idda edərək göstərir. Burada D (deep) alt struktur, S (surface) isə üst strukturdur. S-üst struktur formativlər və birləşdiricilər ardıcıllığının işarələnmiş mötərizələridir. D-alt struktur işarələnmiş mötərizə olub, qrammatik funksiyaların müəyyən əlaqəsini və təşkil olunduğu elementlər və element qrupları arasındakı qrammatik əlaqələri təyin edir. Aydındır ki, sintaktik komponent sonlu sayda qaydalara (və ya qayda sxemlərinə) malik olmalıdır, lakin bu qaydalar elə təşkil olunmalıdır ki, dilin hər bir izah edilən cümləsinə (fonetik və semantik cəhətdən izah edilən) biri uyğun olmaqla, alt və üst strukturlar sonlu sayda cütlə (D, S) əmələ gətirə bilsin. Prinsip etibarilə, bu cür sistemin təşkil olunmasının müxtəlif üsulları vardır. F.Veysəllinin dili ilə desək, transformasiya qaydalarını başa düşmək üçün F.Palmerə müraciət edək: *“biz cümlədəki münasibətlər haqqnda ümumi fikir irəli sürə bilərik. Biz fəal cümlənin passiv cümləyə çevrilməsinə dair fikir söyləyə bilərik: biz isimlərin və ya ismi söyləmin yerini dəyişib “by” sözü əlavə etməklə onu ikinci cümləyə-passivə çevirə bilərik və eyni zamanda feili aktivdən passivə çevirə bilərik”*[15].

O zaman qrammatikanın ümumi strukturu N.Xomskinin təklif etdiyi kimi olacaqdır. Onun təklif etdiyi ümumi struktur

---

[15] Veysəlli, F.Y. Struktur dilçiliyin əsasları. Studia philologica: Dərs vəsaiti. / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2008. – s. 163.

dissertasiyada diaqram kimi təsvir olunmuşdur. Yarımfəsil yekunlaşdırılarkən belə nəticəyə gəlinmişdir ki, üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqini qısaca belə yekunlaşdırmaq olar: əgər formal sintaksisin əsas təhlil aspektləri cümlə üzvləri, aktual üzvlənmə, sintaqmatik üzvlənmə və parentetik əlavələr hesab edilirsə, üst qat strukturu üzrə təhlil sintaksisin semantika ilə sıx əlaqəsi ilə izah olunur. Bu da üst qat strukturu üzrə təhlili digər formal təhlillərdən fərqləndirir.

İkinci fəslin ***"Üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqi"*** adlı üçüncü yarımfəslində üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqindən bəhs olunur. Üst qat strukturu üzrə təhlilin digər formal təhlillərdən fərqini göstərmək üçün, yarımfəsildə N.Xomskinin üst qat strukturunun fonoloji səviyyədəki təhlilinə müraciət olunmuşdur. Yarımfəsildə göstərilir ki, üst qatın əsas fonoloji xüsusiyyətlərini vurğulayan N.Xomski qeyd edir ki, *"universal fonetika və universal semantikanın qənaətbəxş nəzəriyyəsinin tərəfdarı olduğumu düşünün. Daha sonra cümlənin səs-məna cütünün xüsusi bir növü olduğu cümlə toplusu kimi dili təyin edən və insan dillərini müəyyən edən qaydalar sistemlərini öyrənməyə davam edə bilərik. Lakin, əslində, yalnız universal fonetika nəzəriyyəsi bu fikri dəstəkləmək üçün kifayət qədər yaxşı təşkil olunmuşdur"*[16]. Beləliklə, dil strukturunun öyrənilməsinə bir az daha dolayı yol ilə yanaşılmalıdır. Bu problemin aydınlaşdırılması üçün Praqa Fonoloji Məktəbi ilə yanaşı XX əsrin əvvəllərində ABŞ-da hinduların dillərinin təsviri vəzifələrinin həlli ilə məşğul olan deskriptiv fonologiya məktəbi ilə bağlı nəzəriyyə və həmçinin ikinci dünya müharibəsi ilə əlaqədar Çexiyadan Amerikaya mühacirət etmiş R.O.Yakobsonun konsepsiyaları müqayisəli şəkildə təhlil edilmişdir. Təhlil nəticəsində cümlənin alt qat strukturunun semantik mahiyyəti aydınlaşdırılmışdır. Yarımfəsil yekunlaşdırılarkən göstərilir ki, üst qatın formal yanaşmalardan fərqini göstərmək üçün, biz N.Xomskinin fonoloji səviyyədə təhlilinə müraciət etdik. Ümumiyyətlə, fonoloji komponentlərin qaydaları nəinki baza

---

[16]Chomsky, N. Language and Mind. / N.Chomsky. – New York: Harcourt Brace & World, Inc., Language and Mind, 3rd ed. Cambridge University Press, – 2006. – p.15.

bölgüsü və mənanın daha incə dəqiqləşdirilməsini nümayiş etdirir, həm də mənaları əhəmiyyətli dərəcədə dəyişir və bəlkə də, seqmentləri daxil edir, silir və ya yenidən qruplaşdırır. Adı çəkilən yanaşma üst qatın müəyyənləşməsində xüsusi vurğulanaraq onu cümlənin alt qatının təhlilindən fərqləndirir.

Dissertasiyanın **"Cümlənin alt qat strukturu və ya semantik tədqiqi"** adlı üçüncü fəsli də üç yarımfəsildən ibarətdir.

Bu fəslin ***"Cümlənin alt qatının spesifik xüsusiyyətləri"*** adlı birinci yarımfəslində cümlənin alt qatının spesifik xüsusiyyətləri təsvir olunur. Öncəki fəslə istinadən müəyyən etdik ki, dildən istifadənin yaradıcı aspektinin təhlili dil və təfəkkür proseslərinin oxşar olması haqqında fərziyyəyə əsaslanır: yəni, dil bizə fikirlərimizin və hisslərimizin azad ifadə olunması, həmçinin yaradıcı təxəyyülün fəaliyyəti üçün ilkin vasitələr təqdim edir. "Kartezian dilçiliyi" adlanan fikir istiqaməti mövcud olduğu müddətdə qrammatikanın konkret məsələlərinin əksəriyyəti bu fərziyyəyə əsaslanaraq həll olunurdu. Məsələn, "Por-Royal Qrammatikasında" sintaktik məsələlərinin müzakirəsi idrakımızda üç əməliyyatın baş verməsi haqqında qeydlər ilə başlayır: nəyi isə özünüzə təsəvvür etmək (concevoir), nəyi isə mühakimə etmək (judger), nə isə haqqında nəticə çıxarmaq (raisonner)[17]. Anlayışların mühakimələrə birləşdiyi üsulu nəzərə alaraq "Por-Royal Qrammatika"sının müəllifləri istənilən qrammatikanın ümumi formasının necə olmasını təyin edirlər. Bu universal alt strukturu onlar "düşüncələrimizin təbii yollarla ifadəsi"ni müşahidə edərək müəyyənləşdirirlər[18]. Sonrakı dövrlərdə də universal qrammatika sxemini dəqiqləşdirmək cəhdləri eyni istiqamətdə davam etdirilmişdir. Müxtəlif nəzəriyyələr və konsepsiyalar da irəli sürülən ziddiyyətli fikirlərini tənqid edən N.Xomski 60-cı illərin birinci yarısından etibarən cümlənin alt qatının spesifik xüsusiyyətləri haqqında müfəssəl fikirləri irəli sürülmüşdür.

Beləliklə, yarımfəsildə N.Xomskinin dilçilikdə "alt struktur"

---

[17] Lancelot, C. Grammaire generale et raisonnee. / C.Lancelot, A.Arnauld. – Paris: LaSalle, – 1660. – p. 90.

[18]Арно, А., Лансло К. Всеобщая рациональная грамматика (Грамматика Пор-Рояля). / А.Арно, К.Лансло. – Л.: Изд-во ЛГУ, – 1991. – p. 30.

anlamının müxtəlif şərhlərini müəyyən etmiş olduq. N.Xomskinin törəmə dilçiliyinə "alt struktur" anlayışı altında üst strukturun – söz birləşmələri və cümlələrin törəməsinə xidmət edən hər hansı bir semantik və ya anlamlı yaranmaları (törəmələri) anlayaraq hər iki strukturun spesifik xüsusiyyətlər müəyyən olunur və fərqləndirilir.

Dissertasiyanın ***"Alt qatda ambiguity (ikimənalılıq) və onun müəyyənləşməsi kriteriyaları"*** adlı ikinci yarımfəsildə alt qatda ambiguity (ikimənalılıq) və onun müəyyənləşməsi kriteriyalarından bəhs olunur. Alt və üst struktur ikimənalılığı (ambiguity) arasında sintaktik fərq nəzəri və analitik əsaslarla şərtlənir. Yarımfəsildə göstərilir ki, dilçilər tərəfindən iki növ ikimənalılıq seçilir: leksik ikimənalılıq və sintaktik ikimənalılıq. Leksik ikimənalılıq (ambiguity) homofonlara aiddir, yəni birdən artıq mənaya malik olan fonoloji formaya. Bu məsələnin praktik həllini aydınlaşdırmaq məqsədilə yarımfəsildə problemə dair praktik nümunələr öz əksini tapmışdır. Yarımfəsildə lakonik şəkildə qeyd olunur ki, ikimənalılıq nəinki cümlənin alt qatında, həmçinin üst qatında da mövcuddur. Alt qatda ikimənalılığın əsas müəyyənləşmə kriteriyalarına söz, söyləm və ya cümlənin birdən çox məna daşıması aiddir. Gətirdiyimiz çoxsaylı misallar sübut etdi ki, bir söz və ya hətta cümlə bir neçə leksik mənaya malik ola bilər və bu da dil daşıyıcısı üçün çətinlik yarada bilər. Əsl dil daşıyıcısı üçün, birmənalı olan cümlə və ya söyləm adi dili mənimsəyən üçün çətinlik yarada bilər. Bunun üçün dili mənimsəyən şəxs həm alt qatın, həm də üst qatın qarşılıqlı əlaqəsini qurmağı bacarmalıdır.

Dissertasiyanın ***"Dilin mənimsənilməsində alt və üst qatların qarşılıqlı əlaqəsi"*** adlı üçüncü yarımfəslində dilin mənimsənilməsində alt və üst qatların qarşılıqlı əlaqəsindən bəhs olunur. "Alt qat" qrammatikasının fərqini həm də belə frazaların təhlilində aşkar üçün yarımfəsildə nümunələr də verilir. Yarımfəsildə dilin mənimsənilməsində alt və üst qatların qarşılıqlı əlaqəsi ilə bağlı nəzəri müddəalarla yanaşı praktik nümunələr də yer alır. Yarımfəsil yekunlaşdırılarkən göstərilir ki, qrammatik quruluşun alt və üst qatlarının qarşılıqlı münasibətləri müxtəlif olduğu üçün məsələyə bu kontekstdə yanaşmaq lazım gəlir. Elə söyləmlərə rast gəldik ki, onların "alt" və "üst" qatlarının struktur münasibətləri birmənalıdır

və üst qrammatik quruluşundan “alt” quruluşuna keçid asandır. Lakin bəzi hallar da aşkar edildi ki, qarşılıqlı münasibətlər asan olmur, bəzən mübahisəlidir və “üst” qrammatik strukturdan “alt” qrammatik struktura keçid xüsusi səy tələb edir.

**“Noam Xomskinin sintaktik təlimində cümlənin alt və üst qatları konsepsiyası”** adlı bu tədqiqat işini yerinə yetirərkən xeyli sayda elmi-nəzəri ədəbiyyat və alimlərin fikir və baxışları nəzərdən keçirilmiş, müxtəlif tədqiqat metodlarından istifadə etməklə araşdırma aparılmış, əldə edilən qənaətlər Nəticə hissəsində aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. N.Xomskinin dilçilik əsərləri müasir psixologiya, fəlsəfə və elm üçün dərin nəticələrə gətirib çıxarmışdır. Bizim “biolinqvistika” adlandırdığımız bugünki bilik sahəsi onu ruhlandırmışdır. N.Xomski üçün linqvistika (dilçilik) – koqnitiv psixologiya sahəsidir. Dilçilikdə həqiqi həssaslıq mental və insani təbiətin aspektlərinin uyğunluğu anlayışını nəzərdə tutur. Belə anlayışın nəticələrindən biri odur ki, dilçilik, psixologiya, fəlsəfə və ayrı avtonom fənnlər kimi nəzərdən keçirilmir. N.Xomski dilçiliyi ağlın tədqiqinin əsasına gətirmişdir. Onun sözlərinə görə, dilçilik nəzəriyyəsini bütün dillər arasındakı ümumi oxşarlıqla nəzərdən keçirmək lazımdır. Onun unikal fəlsəfəsi dilə malikdir – dilçiliyin mahiyyəti – epistemiologiyanın daha geniş sahəsində nüfuzlu yerdir. Linqvistikanın “Kartezian” adlandırılan əsas nailiyyətlərindən biri insan dilinin normal istifadədə bir-birindən müstəqil olaraq ayrılan xarici stimullar və daxili vəziyyətlərin nəzarətindən azad olması, məsələn, heyvanların psevdo-dilinin əksinə olaraq, hər hansı praktiki rabitə funksiyası ilə məhdudlaşmamış olmasının dərk edilməsidir. Beləliklə, dil heç nə ilə məhdudlaşmayan düşüncə və özünüifadə vasitəsi kimi sərbəst şəkildə istifadə edilə bilər.

2. Dilin prinsiplərinin və gerçək məntiqin şüursuz xarakteri və onların əhəmiyyətli dərəcədə dilin mənimsənilməsində ilkin şərt təşkil etməsi, lakin “təhsil”in və ya “öyrənmə”nin nəticəsi kimi meydana çıxmaması “Kartezian” dilçiliyinin ümumi müddəalarıdır. Qısa şəkildə desək, dilin mənimsənilməsi – bunun üçün uyğun olan xarici şərtlər altında nisbətən əlverişli olan bacarıqların inkişafı və yetişməsidir. Mənimsənilən dilin forması əhəmiyyətli dərəcədə daxili

faktorlarla əhatə olunmuşdur. Uşaq istənilən dili öyrənməyə ona görə qadirdir ki, insan dilləri arasında fundamental uyğunluqlar vardır, çünki "insan hər yerdə eynidir". Bundan əlavə, dil qabiliyyətinin formalaşması əqli inkişafın müəyyən "kritik dövr"-ündə optimal surətdə baş verir. Essensialist kimi, N.Xomski səriştəlilik və səmərəliliyi ayırır. Səriştəlilik – dil bilgisi olub – bütün cümlələrin struktur xüsusiyyətlərinin implisit anlaşılmasıdır. Səmərəlilik real zaman rejimini özünə birləşdirir və əsas səlahiyyətlə ətraf aləmin pozulması və yaddaşın məhdudlaşması zamanı radikal cəhətdən ayrıla bilir.

3. N.Xomskinin ideyalarının nəinki dilçilik elmi, habelə psixologiyanın inkişafı üçün əhəmiyyətini inkar etmək mümkün deyil, buna görə bir çox xarici tədqiqatlar ona əsaslanırlar. Bununla belə, onun konsepsiyası böyük metodoloji tənqidə məruz qaldı, bu tənqiddən belə nəticə çıxır ki, dil səlahiyyəti anlayışı və onu əsasında yaranan model bir sıra məziyyətlərə malik olaraq psixolinqvistik, psixoloji-pedaqoqik, linqvometodik tədqiqatların məsələlərinə uyğun gəlmir. N.Xomski tərəfindən təklif olunan ən vacib konsepsiyalardan biri alt və üst qatlar konsepsiyasiyasıdır. Generativ paradiqma iddia edir ki, struktur paradiqma tərəfindən təklif olunan struktur təhlil konsepsiyası kifayət qədər məhduddur, o, ancaq üst quruluş səviyyəsinə aiddir. Üst struktur aktual cümlə kimi qəbul olunan sintaktik forma kimi müəyyən oluna bilər. Başqa sözlə desək, o, modifikasiyası transformasiya nəticəsində yaranan cümlə formasıdır.

4. N.Xomskinin əsərlərində üst qat struktur bu cür təsvir edilir: bir dilin generativ (törəmə) qrammatikası alt struktur, üst struktur, fonetik təmsilçi, semantik təmsilçi və digər formal strukturlardan ibarət saysız-hesabsız struktur təsvirlərinin toplusunu müəyyənləşdirir (səciyyələndirir). Alt və üst strukturları ilə bağlı qaydalar, yəni, "qrammatik transformasiyalar", təfərrüatı ilə araşdırılmış və olduqca aydın başa düşülmüşdür. Üst qat strukturu və fonetik təmsilçilər ilə bağlı qaydaları da yaxşı anlamaq olur (baxmayaraq ki, məsələ mübahisəli olaraq qalır). Görünür, həm alt, həm də üst qat strukturu mənanın müəyyənləşdirilməsində rol oynayır. Alt struktur mənanın müəyyənləşdirilməsinə daxil olan predikasiya, modifikasiya və s. qrammatik əlaqələri təşkil edir. Digər

tərəfdən, fokus və presuppozisiya məsələləri, mövzu və şərhlər, məntiqi elementlər və pronominal istinadlar qismən üst qat strukturu ilə müəyyən olunur. Bu halda məna təmsilçilərinə aid olan sintaktik struktur qaydalarını yaxşı anlamaq olur. Əslində, “məna təmsilçiləri” və ya “semantik təmsilçilər” anlayışı özü olduqca mübahisəlidir. Qrammatik mənanın müəyyənləşdirilməsi və “praktik düşüncələr”, “fakt və inam məsələləri” və “ifadənin məzmunu” arasında kəskin fərq qoymaq mümkün deyildir. Linqvistik tədqiqatların hazırkı mərhələsində cümlə sintaksisi aşağıdakı əsas aspektlər əsasında tədqiq olunur: cümlə üzvləri (və ya statistik sintaksis), aktual üzvlənmə (və ya dinamik sintaksis), sintaqmatik üzvlənmə və parentetik əlavələr. Çoxölçülü sintaksis tədqiqatının məqsədəuyğunluğu rus və xarici dilçilərin əsərlərində ətraflı şəkildə əsaslandırılmışdır və ilk növbədə, canlı insan danışıqlarının öyrənilməsinə imkan verən səs-yazma və səs-analizi aparatının inkişafına əsaslanır. Cümlə strukturu morfo-sintaktik faktorların işləməsi baxımından nəzərə alındığına görə, formal qrammatik yanaşmanın mövcudluğu dialektik əlaqələrində leksik və frazeoloji faktorlara görə məhsuldar olur. Sintaktik vahidlərin formal qrammatik təsviri yollarından biri cümlələrin strukturunu modellər şəklində təsvir etməkdir.

5. Sintaksisin semantika ilə əlaqəsi haqqında fikirlərə N.Xomskinin generativ qrammatikasında da rast gəlmək olar. “Generativ qrammatika” N.Xomskinin iyerarxiyasının köməyi ilə təsvir və müqayisə edilə bilər. Bu iyerarxiyaya görə, bir neçə növ formal qrammatikalar seçilir. Sadə növlər arasında müntəzəm qrammatikalar da mövcuddur; Xomski, bunların, bütün təbii dillərdə ardıcıllıq içərisində ardıcılların mərkəzləşdirilməsinə görə insan dilinə nümunə olmadığını deyir. Dil strukturunu öyrənmək üçün çərçivənin müəyyən olunması vacibdir. Dilin qrammatikası səs və mənanın xüsusi təsrifini müəyyən edən qaydalar sistemidir. O, sintaktik, semantik və fonoloji komponentlərdən ibarətdir. Sintaktik komponent müəyyən saysız-hesabsız mücərrəd obyektlərin (alt, üst) sinifini müəyyən edir, burada A (D) alt struktur, Ü (S) isə üst srukturdur. Alt struktur semantik şərhlə bağlı bütün məlumatları, üst struktur isə fonetik şərhlə bağlı olan məlumatları özündə ehtiva edir.

Semantik və fonoloji komponentlər tamamilə təfsir olunur. Beləliklə, "Generativ qrammatika" ümumiyyətlə, semantik və fonetik şərhlərdən ibarətdir və uyğunlaşdırma, sintaktik komponentin qaydalarına əsaslanaraq, cütləşmiş alt və üst strukturlarını müəyyənləşdirir. Əlbəttə, üç komponentin öyrənilməsi yüksək inteqrasiya dərəcəsinə malikdir; hamısı aydın olduğu ölçüdə qəbul edilə bilər. İndi yalnız anlayışlar və məqsədlərin müəyyən edilməsi izah olunur. Digər daha vacib məsələ universal qrammatika fərziyyələrinin formalaşması ilə bağlıdır.

6. 60-cı illərin birinci yarısından başlayaraq, alt struktur anlamı N.Xomskinin 1950-ci illərdəki işlərində "Transformasional törəmə" haqqında dönüş nöqtəsini bildirmək üçün istifadə olunan "nüvə cümləsi" anlamını əvəz edən generativ nəzəriyyənin ən vacib anlamına çevrilmişdir. Alt struktur anlamı generativ nəzəriyyə ilə assosiyasiya olunduğu üçün N.Xomskinin işlərində bu anlamın şərhi ilə tanış olaq. N.Xomski "alt struktur" anlamını "Por-Royal Qrammatika"sına istinad edərək verir. Alt və üst strukturları bağlayan transformasional əməliyyatlar cümləni yaradarkən və ya anlayarkən ağıl tərəfindən yerinə yetirilən həqiqi əməliyyatlar hesab olunur.

Dissertasiya işinin əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:


1. Language ethics: linguo psychology and psycholinguistics (Analysis of the language with psychological problems) // Journal of Psychology and Behavioral Sciences, – Apr. 11, – 2017. Vol. 6, No. 2, Issue 2, – p. 16-20. URL: http://www.sciencepublishinggroup.com/journal/paperinfo?journalid=201&doi=10.11648/j.pbs.20170602.11
2. Иностранные языки как инструмент общественной дипломатии // Журнал «Молодой ученый», Рубрика «Филология», – 16 апрель, – 2017. №14 (148), – с. 719-721. URL: https://moluch.ru/archive/148/
3. Анализ языковых навыков и использование языка, как предмета в основе монографии Н.Хомского Синтаксические Структуры // VIII Professional Formation of the Future Teacher

Conference. Section 5 – Prospects for the Professional Training of teachers of the XXI century. Vědecko vydavatelské centrum "Sociosféra-CZ". Materials of the International Scientific Conference. – Прага: – May 22-23, – 2017, – c. 148-152. URL: http://sociosphera.com/files/conference/2017/k-05_22_17.pdf
4. N.Xomskinin dil təliminin məziyyətləri. Dilin yaradıcı olması // – Bakı: Azərbaycan Dillər Universitetinin "Elmi Xəbərlər"i, – 2017. Cild 2, № 3, – s. 64-68.
5. Dil, oxu və öyrənmə maneələri: N.Xomskinin monoqrafiyaları əsasında // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. № 12, – s. 249-254. URL: http://www.filologiyameseleleri.net/pdf/2017/n12.pdf
6. N.Xomskinin dilə fəlsəfi yanaşması: Struktural dilçiliyin tənqidi və dilin apriori olması ideyası // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. № 14, – s. 182-189. URL: http://www.filologiyameseleleri.net/pdf/2017/n14.pdf
7. Роль иностранных языков, как средство общения в современный период // – Naxçıvan: Naxçıvan Dövlət Universitetinin "Elmi Əsərlər"i, Humanitar elmlər seriyası, – 2017. I c., №5(86), – s. 229-232. URL: http://ndu.edu.az/az/content/411/files/uploader/humanitar%20186.pdf
8. N.Xomskinin Kartezian dilçiliyə münasibəti. Dilin anadangəlmə olması prinsipi // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. № 17, – s. 186-190. URL: http://www.filologiyameseleleri.net/pdf/2017/n17.pdf
9. Semiotics and language: Peculiarity of language structure of Noam Chomsky // – Tbilisi: XVII Semiotics Scientific Journal, – January, – 2018. – p.96-102. https://www.researchgate.net/publication/334773478_XVII_SEMIOTICS_SCIENTIFIC_JOURNAL
10. N.Xomskinin sintaktik təlimində üst qat problemi: Cümlənin üst qatının müəyyənləşməsi kriteriyaları // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 1. – s. 107-113. URL: http://www.filologiyameseleleri.net/pdf/2018/1n.pdf

11. N.Xomski: Dil və təfəkkür // Baku 2nd International Conference of Science. – Baku: – 1 April, – 2018. – s. 183-188. URL: https://sciencehomecollege.wixsite.com/bakuconference-az/accepted-papers https://docs.wixstatic.com/ugd/36c43b_1d5ea9e22cef45109d7ea287e1e9e2d8.pdf
12. N.Xomskinin sintaktik təlimində dil səriştəsi və dildən istifadə” // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin “Elmi Xəbərlər”i, Sosial və Humanitar elmlər bölməsi, – 2018, C. 14, № 1, – s. 8-11. URL: https://sdu.edu.az/userfiles/file/scientific_publications/ex-1-18H.pdf
13. Noam Xomskinin dilçilik üzrə araşdırmaları // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində” mövzusunda Respublika elmi-praktik konfransı. – Bakı: Bakı Slavyan Universiteti, – 27 aprel, – 2018, – s. 179-180.
14. N.Xomskinin sintaktik təlimində dil səriştəsi və dildən istifadə // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 5, – s. 169-173. URL: http://www.filologiyameseleleri.net/pdf/2018/5n.pdf
15. Noam Xomskinin sintaktik təlimində üst qat təhlili // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Lənkəran Dövlət Universiteti. “İnteqrasiya mühitində Azərbaycan elminin qarşısında duran vəzifələr” mövzusunda Respublika elmi konfransı. – Lənkəran: – 21 dekabr, – 2018, – s. 128-129.
16. The sentence deep structure and its semantic research principles in N.Chomsky’s syntactic structures // – Moskva, Volqaqrad: “Philology”, – 2018. – Volume 18, № 6, – p. 47-50. URL: http://sciphilology.ru/f/philology_no_6_18_november.pdf
17. Alt qatda ambiguity (ikimənalılıq) və onun müəyyənləşməsi kriteriyaları // – Sumqayıt: Sumqayıt Dövlət Universitetinin “Elmi Xəbərlər”i, Sosial və Humanitar elmlər bölməsi, – 2019. C. 15, № 3, – s. 19-25. URL: https://www.ssu-scientificnews.edu.az/pdf/S19-3.pdf
18. Alt və üst struktur ikimənalılığı (ambiguity) arasındakı sintaktik fərq // Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı. –

Bakı: Bakı Mühəndislik Universiteti, – 9-30 aprel, – 2019, – s. 394-396. URL: http://yric.az/GTK_Book_2.pdf
19. Dilin mənimsənilməsində cümlənin alt və üst qatlarının qarşılıqlı əlaqəsi // “Davamlı inkişaf və Humanitar elmlərin aktual problemləri” Respublika konfransı. – Bakı: Azərbaycan Universiteti, – 24 oktyabr, – 2019, – s. 76-79. URL: https://www.au.edu.az/az/menu/325/davamli-inkisaf-ve-humanitar-elmlerin-aktual-problemleri-2019-haqqinda
20. Structural ambiguity in N.Chomsky’s syntactic doctrine // V Avrasya Uluslararası Multidisipliner Çalışmalar Kongresi, – Bakı: – 16-19 dekabr, – 2019, – s. 76-79. URL: https://f749d2de-b9db-4cec-b6d0-ee07a424fefb.filesusr.com/ugd/614b1f_8789f9aac76141fc88a64928c71e6715.pdf
21. Fəlsəfədə Rasionalizm cərəyanı və Kartezian dilçiliyi: N.Xomski iyerarxiyasına istinadən // “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya” adlı Beynəlxalq elmi-praktiki konfrans. – Bakı: – 18-20 dekabr, – 2019, – s. 10-16. URL: http://www.aztu.edu.az/azp/resources/down/final_program_conference.pdf
22. Rationalism stream in Cartesian linguistics // – Bakı, Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik “Pedaqogika” jurnalı, – 2020. №1, – s. 246-251. URL: http://pedaqogika.az/blog/2021/09/10/pedaqogika-jurnali-2020-%e2%84%961/
23. Azərbaycan ali təhsilində Noam Xomskinin dilçilik araşdırmalarının tədrisinin əhəmiyyəti // International Conference on the Philosophy of Language, Literature and Linguistics. – Bakı: – 12 sentyabr, – 2020, – s. 84-85. URL: http://www.icpl2020.com/
24. Cümlənin alt qatında semantik struktur konsepsiyasının müəyyənləşməsi // III Uluslararasi Nevruz Kültür Ve Medeniyet Kongresi. Bakı: – 18-22 mart, – 2020, – s. 98. URL: https://d35b3f32-2c3e-4520-ac61-0c8cde7df6cf.filesusr.com/ugd/614b1f_7458eeddf3bb4689973a5511e33a59b0.pdf

25. История лингво-философской мысли Н.Хомского // – Bakı: Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik “Pedaqogika” jurnalı, – 2020. № 3, – s. 153-161.
26. Н.Хомский: От картезианской традиции к генеративной грамматике // – Bakı: Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik “Pedaqogika” jurnalı, – 2021. №1, – s.109-117. URL: http://pedaqogika.az/blog/2021/09/11/pedaqogika-jurnali-2021-%e2%84%961-2/
27. The law and linguistic movements dedicated to resolve concrete and specific legal problems // – Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, – 2021. № 4, – s.145-149. URL: https://www.pa.edu.az/upload/_PA_jurnal%C4%B1_4.pdf
28. Linguistic theory and linguistic school of N.Chomsky // – Bakı: Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik “Pedaqogika” jurnalı, – 2021. № 4, – s.135-138.

Dissertasiyanın müdafiəsi 07 İyun 2022-ci il tarixində saat $11^{00}$-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "06" May 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.04.2022.

Kağızın formatı: 60x84 1/16

Həcm: 39910

Tiraj: 100 nüsxə